**AZƏRBAYCAN RESPUBLİKASI**
**DÖVLƏT STATİSTİKA KOMİTƏSİNİN APELLYASİYA ŞURASI**
**Q Ə R A R**
**№ 10**

**Bakı şəhəri** **03 iyun 2022-ci il**

Apellyasiya Şurası Dövlət Statistika Komitəsi sədrinin birinci müavini - Apellyasiya Şurasının sədri Vahab Feyruz oğlu Məmmədovun sədrliyi ilə Afiq Marlen oğlu Zeynalovun Samux Rayon Statistika İdarəsinin rəisi vəzifəsinin tutulması üçün 2022-ci il may ayının 13-də keçirilən ümumi müsahibənin nəticəsinə dair şikayətinə baxaraq müəyyən etdi:

Namizəd Zeynalov Afiq Marlen oğlu Samux Rayon Statistika İdarəsinin rəisi vəzifəsinin tutulması üçün Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən 2022-ci il fevral ayının 17-də elan edilmiş ümumi müsahibədə iştirak etmişdir. Müsahibə 2022-ci il may ayının 13-də Dövlət Statistika Komitəsi aparatının Statistika işlərinin əlaqələndirilməsi və strateji planlaşdırma şöbəsinin müdiri Qasım Əliyev, Dövlət İmtahan Mərkəzinin nümayəndəsi Rüfət Ağayev və müstəqil ekspert Bulud Sadıqovdan ibarət komissiya tərəfindən keçirilmişdir. Zeynalov Afiq Marlen oğluna müsahibə komissiyasının üzvlərindən Q.Əliyev və B.Sadıqov 16, R.Ağayev 14 bal vermiş və nəticədə iştirakçı 15,3 bal toplayaraq müvəffəqiyyət qazana bilməmişdir.

Müsahibənin nəticəsindən narazı qalan namizəd "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 29-1-ci maddəsinə və "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 29 dekabr tarixli 435 nömrəli Fərmanının 3.23-1.1-ci yarımbəndinə əsasən Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin Apellyasiya Şurasına 18.05.2022-ci il tarixdə şikayət ərizəsi ilə müraciət etmişdir.

Apellyasiya Şurasının iclasında aparılmış müzakirələrə əsasən namizədin vəzifəyə uyğun hesab edilmədiyi müəyyən edilmişdir.

Yuxarıda göstərilənlər və Apellyasiya Şurası üzvlərinin müzakirələrdən sonra gəldiyi yekun nəticə nəzərə alınaraq Dövlət Statistika Komitəsinin Apellyasiya Şurası **qərara aldı**:

1. Zeynalov Afiq Marlen oğlunun 18 may 2022-ci il tarixli apellyasiya şikayəti təmin edilməsin və Samux Rayon Statistika İdarəsinin rəisi vəzifəsinin tutulması üçün 2022-ci il may ayının 13-də keçirilən ümumi müsahibənin nəticəsi qüvvədə saxlanılsın.
2. S.Süleymanova Dövlət Statistika Komitəsinin Apellyasiya Şurasının qərarı qəbul edildiyi gündən onun surətinin üç gün müddətində Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinə təqdim edilməsini təmin etsin.
3. Qərardan Azərbaycan Respublikasının Prezidenti yanında Apellyasiya Şurasına şikayət verilə bilər.

**Sədr** **Vahab Məmmədov**